**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1nömrəli
08.09.2025-ci il tarixli əmri ilə
təsdiq edilmişdir.**

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

**İxtisasın şifri və adı: 7002016 - Tarix**

**BAKI – 2025**

# AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
# AZƏRBAYCAN UNİVERSİTETİ

*Azərbaycan Universiteti Elmi şurasının*
*12.09.2025-ci il tarixli,*
*01 saylı protokolu ilə təsdiq edilmişdir.*

*Rektor fil.ü.f.d. S.N. Əliyeva*

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ
# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın şifri və adı: 7002016 – Tarix**

**İxtisaslaşma adı: Azərbaycanın yeni və ən yeni tarixi**

**BAKI – 2025**

**MAGİSTRATURA SƏVİYYƏSİNİN 7002016 - TARİX İXTİSASI ÜZRƏ**

**TƏHSİL PROQRAMI**

# 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7002016 - Tarix ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

# 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret

vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə etmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək bacarığı;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;
- davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək.

2.2. Təhsil proqramının sonunda məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:
- Tarixi analiz – Azərbaycanın yeni və ən yeni tarixində baş vermiş siyasi, sosial və iqtisadi hadisələri analiz etmək və bu hadisələr arasında əlaqələri müəyyənləşdirmək;
- Tarixi mənbələrlə işləmək, bütün dövrlərə aid ilkin və ikinci dərəcəli mənbələri təhlil etmək, onların etibarlılığını və obyektivliyini qiymətləndirmək;
- Tarixi dövrləri müqayisəli şəkildə təhlil etmək – yeni və ən yeni dövrdə Azərbaycanın tarixi inkişaf proseslərini müqayisə etmək və oxşar/fərqli cəhətləri ayırd etmək;
- Fakt və hadisələrə obyektiv yanaşmaq – ideoloji və siyasi meyllərdən kənar, tarixi hadisələri obyektiv dəyərləndirmək;
- Arxiv və elektron informasiya bazaları ilə işləmək – Azərbaycanın yeni və ən yeni dövr tarixinə dair rəqəmsal və fiziki arxivlərlə işləmək, informasiyanı düzgün seçmək və sistemləşdirmək;
- Tarixi hadisələrin müasir dövrə təsirini izah etmək – Azərbaycan tarixinin yeni və ən yeni dövründə baş verən hadisələrin regional və qlobal təsirini dəyərləndirmək.

## 3. Təhsil Proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| **İxtisaslaşmaların adları** | **Verilən dərəcə** | **Əyani forma üzrə təhsil müddəti** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| Azərbaycanın yeni və ən yeni tarixi ixtisaslaşması üzrə: | Magistr ali elmi-ixtisas | 2 il | 120 |

3.2. **7002016 Azərbaycanın yeni və ən yeni tarixi** ixtisaslaşması üzrə Təhsil Proqramı 120 (2 il) AKTS kreditindən ibarətdir. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| | **Ümumi fənlər** | |
| 1 | **Tədqiqat metodları**<br>*Bu fənn kəmiyyət və keyfiyyət tədqiqat metodlarının, ölçmə, tədqiqat dizaynı və təhlilin qarşılıqlı asılılığına diqqət yetirir. Fənn çərçivəsində tədqiqat səriştələri, kitabxana və internet resurslarından məlumat qaynağı kimi istifadə edilməsi, verilənlərin araşdırılması, təhlil edilərək təqdim edilməsi kimi keyfiyyətin aşılanmasını nəzərdə tutur.* | 6 |
| 2 | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və səriştələr verəcəkdir.* | 6 |
| 3 | **Tədqiqat analitikası**<br>*Bu fənnin tədrisi məlumat təhlili prosesi, məlumat növləri, məlumatların toplanma mənbələri, məlumat təhlili üzrə strategiyanın qurulması, məlumatların təhlil üçün hazırlanması və təmizlənməsi, təhlil üçün məlumatların sistemləşdirilməsi, məlumatların vizuallaşdırılması, sahəyə uyğun olaraq təhlillərdə istifadə olunacaq proqram təminatları ilə tanışlıq ("Excel", "SPSS", "Stata", "R", "MAXQDA", "Matlab", "Python" və s. kimi), ixtisas sahəsində tədqiqatlarda istifadə olunan təhlil metodları ilə təhlillərin aparılması (statistik testlər və təhlillər, kəmiyyət və keyfiyyət təhlilləri, eksperimental təhlillər, anket və sorğu təhlilləri və s. kimi) və təhlillərin əsasında müvafiq rəylərin hazırlanmasını nəzərdə tutur.* | 6 |
| | **İxtisas (ixtisaslaşma) fənləri** | |

| | | |
|---|---|---|
| 1 | **Tarix elminin müasir problemləri**<br>*Bu fənnin tədrisi tələbələrə müasir tarixşünaslığın nəzəri və metodoloji əsaslarını öyrətməyi, mənbələrin düzgün tədqiqi və interpretasiyası bacarığını formalaşdırmağı, qloballaşma və informasiya texnologiyalarının tarix elminə təsirini anlamağı, interdisiplinar yanaşmalardan istifadəni və analitik-tənqidi düşünmə qabiliyyətini inkişaf etdirməyi nəzərdə tutur.* | 6 |
| 2 | **Tarix elminin tarixi və metodologiyası**<br>*Fənn çərçivəsində tələbələr tarix elminin yaranma və inkişaf mərhələlərini, müxtəlif dövrlərdəki elmi məktəbləri və nəzəri istiqamətləri öyrənir, tarixi tədqiqatın metodlarını mənimsəyir, həmçinin müqayisəli, tənqidi və interdisiplinar yanaşmaları tətbiq etmə bacarığı qazanırlar. Tələbələr tarixi mənbələrlə işləmə qaydalarını, faktların toplanması və təhlil edilməsini öyrənir, tarixşünaslıqda mövcud nəzəri problemləri dərk edir və müasir tarix elminin inkişaf istiqamətlərini qiymətləndirə bilirlər. Fənnin əsas məqsədi tələbələrdə tarix elminin metodoloji və nəzəri əsasları üzrə sistemli bilik yaratmaq, tənqidi düşünmə və elmi təhlil bacarıqlarını inkişaf etdirməkdir.* | 6 |
| 3 | **Azərbaycanda milli azadlıq hərəkatı**<br>*Fənn çərçivəsində tələbələr Azərbaycan milli azadlıq hərəkatının tarixi kontekstini və səbəblərini, 1905–1918-ci illərdə baş verən inqilabi və siyasi prosesləri, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, fəaliyyəti və dövlətçilik ənənələrinin formalaşmasını öyrənir. Həmçinin tələbələr hərəkatın aparıcı şəxslərinin fəaliyyətini və ideyalarını qiymətləndirir, daxili və xarici amillərin hərəkatın inkişafına təsirini müqayisəli şəkildə təhlil edə bilir. Fənnin əsas məqsədi tələbələrdə Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsini dərk etmək, milli kimlik və vətənpərvərlik hisslərini inkişaf etdirmək, tarixi prosesləri obyektiv və analitik baxışla qiymətləndirməkdir.* | 6 |
| 4 | **Azərbaycan XIX əsrin ilk 30 illiyində**<br>*Fənnin öyrənilməsi Azərbaycanın şimal və cənub hissələrinin siyasi-coğrafi parçalanması, bu parçalanmanın xalqın taleyinə, sosial-iqtisadi həyatına və milli kimlik şüurunun formalaşmasına təsirini anlamağa imkan yaradır. Eyni zamanda tələbələr dövrün maarifçilik hərəkatı, ədəbiyyat və mədəniyyət nümayəndələrinin fəaliyyətini, elmi fikir və ideoloji tendensiyaları araşdırırlar. Bu fənnin tədrisi həmçinin tələbələrin tarixi mənbələrlə işləmək, müqavilə və sənədləri təhlil etmək, hadisələri regional və qlobal kontekstdə qiymətləndirmək bacarıqlarını inkişaf etdirir. Beləliklə, kurs tələbələrə XIX əsrin ilk 30 illiyində Azərbaycanın tarixi* | 6 |

| | | |
|---|---|---|
| | *proseslərini dərindən anlamaqla yanaşı, həmin dövrün müasir dövrdə milli dövlətçilik, regional münasibətlər və tarixi yaddaş baxımından əhəmiyyətini dərk etməyə imkan verir.* | |
| 5 | **Türk-müsəlman əhalisinə qarşı soyqırım**<br>*Fənn çərçivəsində tələbələr 1905–1906-cı illərdə baş vermiş, eləcə də Birinci Dünya Müharibəsi və 1918-ci il hadisələri zamanı türk-müsəlman əhalisinə qarşı törədilmiş qırğınları araşdırır, onların səbəblərini və nəticələrini təhlil edir. Tələbələr həmçinin soyqırımın regiondakı siyasi, sosial və mədəni təsirlərini qiymətləndirir, həm yerli, həm də xarici mənbələrdəki məlumatları müqayisəli şəkildə öyrənir. Fənnin əsas məqsədi tələbələrdə tarixi hadisələri obyektiv şəkildə anlamaq, milli kimlik və vətənpərvərlik hisslərini gücləndirmək, soyqırımı faktlarını elmi əsaslarla təhlil etmək bacarığını inkişaf etdirməkdir.* | 6 |
| 6 | **Azərbaycanda XIX-XX əsrin əvvəllərində təhsil**<br>*Fənn çərçivəsində tələbələr həm milli, həm də dini təhsil müəssisələrinin fəaliyyətini, məktəblərin təşkili və proqramlarını, həmçinin maarifçilərin və ziyalıların rolunu öyrənir. Tələbələr dövrün təhsil siyasətinin ictimai və mədəni həyatın inkişafına təsirini, təhsilin sosial-iqtisadi və milli kimlik formalaşdırmadakı rolunu təhlil edir. Fənnin əsas məqsədi tələbələrdə həmin dövrdəki təhsil sistemini dərindən dərk etmək, maarifçilik ənənələrini qiymətləndirmək və təhsil sahəsində tarixi prosesləri obyektiv və analitik baxışla təhlil etmək bacarığını inkişaf etdirməkdir.* | 6 |
| 7 | **Azərbaycanda Sovet işğal rejiminə qarşı mübarizə**<br>*Fənn çərçivəsində tələbələr 1920-ci il Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranan siyasi vəziyyəti, xalqın milli-müstəqillik ideyalarını qorumaq üçün apardığı hərbi, siyasi və diplomatik mübarizəni araşdırır. Tələbələr həmçinin müqavimət hərəkatının aparıcı şəxslərinin fəaliyyətini, repressiyalar və sosial dəyişikliklər üzərindəki təsirini təhlil edir. Fənnin əsas məqsədi tələbələrdə tarixi hadisələri obyektiv şəkildə anlamaq, milli kimlik və vətənpərvərlik hisslərini gücləndirmək, Sovet işğalına qarşı mübarizənin tarixi əhəmiyyətini və nəticələrini dərindən dərk etmək bacarığını inkişaf etdirməkdir.* | 6 |
| 8 | **Qarabağ müharibələri. Zəfər tarixi**<br>*Fənn çərçivəsində tələbələr Qarabağ münaqişəsinin tarixi və siyasi səbəblərini, hərbi əməliyyatları, diplomatik səyləri və beynəlxalq reaksiyaları təhlil edir. Tələbələr həmçinin 2020-ci il Zəfərinin strateji, siyasi və hüquqi nəticələrini, müharibələrin sosial, humanitar və mədəni təsirlərini, milli həmrəylik və dövlətçilik ənənələrinin rolunu öyrənir. Fənnin* | 6 |

| | | |
|---|---|---|
| | *əsas məqsədi tələbələrdə Azərbaycanın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizəsini dərindən anlamaq, milli qəhrəmanlıq və vətənpərvərlik hisslərini gücləndirmək, tarixi hadisələri obyektiv və analitik baxışla qiymətləndirmək bacarığını inkişaf etdirməkdir.* | |
| 9 | **Müasir dövrdə Azərbaycanın Qafqazın lider dövlətinə çevrilməsi**<br>*Fənnin tədrisi müstəqillik əldə etdikdən sonrakı dövrdə Azərbaycanın keçdiyi inkişaf yolunun, siyasi, iqtisadi, diplomatik və mədəni sahələrdə qazandığı nailiyyətlərin hərtərəfli öyrənilməsini nəzərdə tutur. Fənnin əsas məqsədi tələbələrə Azərbaycanın regional və beynəlxalq münasibətlər sistemində oynadığı rolun elmi təhlilini vermək, onun Qafqazda lider dövlət statusunu təmin edən amilləri araşdırmaqdır. Tədris prosesində tələbələr Azərbaycanın geosiyasi mövqeyi, enerji siyasəti və beynəlxalq enerji layihələrində iştirakı, nəqliyyat-logistika təşəbbüsləri, hərbi-siyasi gücü, iqtisadi modernizasiya və inkişaf strategiyaları barədə biliklər əldə edirlər. Eyni zamanda kurs ölkənin beynəlxalq təşkilatlarla əməkdaşlığını, balanslaşdırılmış xarici siyasətini, regional təhlükəsizlikdə və sülh təşəbbüslərində oynadığı rolu öyrədir. Bu fənnin öyrənilməsi tələbələrə müasir dövrdə Azərbaycanın daxili siyasi sabitliyini qorumaq, iqtisadiyyatını şaxələndirmək və beynəlxalq nüfuzunu artırmaq istiqamətində həyata keçirdiyi strategiyaların elmi dəyərləndirilməsini öyrədir. Bundan başqa, kurs tələbələrin analitik bacarıqlarını inkişaf etdirərək onları regional siyasət, beynəlxalq münasibətlər və dövlət strategiyası sahəsində müstəqil elmi nəticələr çıxarmağa yönəldir.* | 6 |
| **Təcrübə** | | |
| ... | **Elmi-pedaqoji təcrübə** | 6 |
| ... | **Elmi tədqiqat təcrübəsi** | 6 |
| **Dissertasiya işi** | | |
| ... | **Magistrlik dissertasiyası** | 18 |
| **CƏMİ** | | **120** |

## 4. Proqramın və hər bir fənnin təlim nəticələri

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.
4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.
4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Təhsil proqramının tədris, təlim və qiymətləndirmə prosesi ali təhsil müəssisəsinin aşağıdakı infrastruktura malik olmasını zəruri edir:

**Azərbaycanın yeni və ən yeni tarixi ixtisaslaşması üzrə:**

- Tədris və seminar otaqları müasir texniki avadanlıqlarla təchiz olunması;
- Kompüter otaqları və sürətli internet bağlantısı mövcud olması;
- Elektron resurslara çıxış imkanı olan, tarixə dair fundamental və müasir ədəbiyyatla təmin edilmiş kitabxana mövcud olması;
- Multimedia avadanlıqları, interaktiv lövhələr, proyektorlarlarla təchiz olunmuş otaqların olması;
- Təcrübə və tədqiqat bazası olan arxivlər, muzeylərlə əməkdaşlıq, arxeoloji tədris bazaları ilə əməkdaşlığın mövcudluğu;
- Elmi dərəcəyə və elmi ada malik yüksək peşəkarlığa sahib olan kadrların olıması;
- Asudə vaxtın səmərəli keçirilməsi üçün kitabxana, oxu zallları, tələbə kafesi, idman sahələrinin olması;
- Sağlam təmiz ətraf-bağça, otaqlar, yanğın təhlükəsizlik sistemləri, tibb kabinetinin olması.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.
5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **7002016 – Tarix. Azərbaycanın yeni və ən yeni tarixi** ixtisaslaşması üzrə *məzunlar aşağıdakı sahələrdə və peşələrdə işləmək imkanı əldə edirlər:*
- Ümumtəhsil məktəblərində tarix müəllimi, özəl təhsil sahələrində tarixçi və ya mütəxəssis kimi fəaliyyət göstərə bilər
- Peşə və orta ixtisas məktəblərində müəllim
- Ali təhsil müəssisələrində müəllim və ya elmi işçi
- Elmi-tədqiqat institutlarında tədqiqatçı

- Muzey, arxiv, kitabxana və mədəniyyət müəssisələrində metodist və ya mütəxəssis
- Qeyri-hökumət təşkilatlarında, layihələrdə və beynəlxalq qurumlarda tarix üzrə ekspert və ya təlimçi
- Dövlət idarəetmə orqanlarında humanitar sahələr üzrə mütəxəssis.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.
6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.
6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

Ali təhsil müəssisəsi təhsil proqramının təlim nəticələrinə uyğun hər bir tədris fəaliyyəti (eləcə də fənlər) üzrə gözlənilən təlim nəticələrini müəyyən etməlidir. *Aşağıdakı cədvəllərdə minimum 6 təlim nəticələsi sadalanmalıdır (təhsil proqramı və hər bir tədris fəaliyyəti (fənn) üzrə ayrı-ayrılıqda)*

| **1. Azərbaycanın yeni və ən yeni tarixi ixtisaslaşması üzrə Təhsil Proqramın təlim nəticələri (PTN)** |
|---|
| **PTN 1.** Tələbə Azərbaycanın XIX–XX əsrlərdəki siyasi, iqtisadi və sosial proseslərini izah edə bilir. Tələbə imperializm dövründə Azərbaycanın Rusiya və Qacar təsir dairəsindəki vəziyyətini, ictimai-siyasi hərəkatları, iqtisadi inkişaf və sosial dəyişiklikləri təhlil edə bilir. |
| **PTN 2.** Tələbə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və dövlətçilik ənənələrini dəyərləndirir. Tələbə milli dövlətçilik ideyalarının formalaşmasını, Xalq Cümhuriyyətinin hüquqi və siyasi əsaslarını, idarəetmə strukturunu və xarici siyasət fəaliyyətini müqayisəli şəkildə şərh edir. |
| **PTN 3**. Tələbə Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə və Sovet işğalı dövrünü təhlil edə bilir. Tələbə 1920-ci ildən başlayaraq Sovet işğalına qarşı mübarizəni, repressiyalar və milli-azadlıq hərəkatlarının sosial və siyasi nəticələrini anlamaq bacarığı qazanır. |
| **PTN 4**. Tələbə XX əsrin sonları və XXI əsrin əvvəllərində Azərbaycanın müasir tarixini qiymətləndirir. Tələbə Qarabağ müharibələri, 2020-ci il Zəfəri və müstəqil Azərbaycanın dövlətçilik inkişafını analiz edir, müasir tarixi proseslərin siyasi və sosial əhəmiyyətini şərh edir. |

| |
|---|
| **PTN 5.** Tələbə tarixi mənbələr və arxiv materialları ilə işləmə bacarığına yiyələnir. Tələbə yazılı, arxeoloji və vizual mənbələri təhlil edir, məlumatların obyektivliyini qiymətləndirir və tarixi hadisələri elmi əsaslarla şərh edir. |
| **PTN 6**. Tələbə Azərbaycanın yeni və ən yeni tarixi irsinin milli kimlik və mədəniyyətin formalaşmasındakı rolunu dərk edir. Tələbə tarixi proseslərin milli kimliyin, dövlətçilik ənənələrinin və müasir ictimai-siyasi inkişafın formalaşmasına verdiyi töhfəni əsaslı şəkildə izah edə bilir. |

| **2. Azərbaycanın qədim və orta əsrlər tarixi ixtisaslaşması**<br>**Fənn üzrə təlim nəticələri (FTN)**<br>**Ümumi fənlər** |
|---|
| ***Tədqiqat metodları*** |
| **FTN 1.** Elmi tədqiqatların aparılması üçün kəmiyyət və keyfiyyət tədqiqat metodlarını, onların xüsusiyyətlərini və tətbiq sahələrini fərqləndirə və məqsədyönlü şəkildə tətbiq edə biləcək. |
| **FTN 2.** Fəaliyyət sahələrində tədqiqat sualının formalaşdırılması, hipotezlərin və tədqiqat dizaynının (eksperimental və ya müşahidə xarakterli) qurulması bacarığına yiyələnəcək. |
| **FTN 3**. Elmi mənbələrdən (kitabxana, elmi bazalar, elektron resurslar və s.) sistematik istifadə edərək mövcud bilikləri toplaya və onlara əsasən tədqiqat çərçivəsini formalaşdıracaq. |
| **FTN 4**. Toplanmış verilənlərin ölçülməsi, statistik üsullarla işlənməsi, vizualizasiya edilməsi və tədqiqat məqsədlərinə uyğun olaraq təhlilini həyata keçirəcək. |
| **FTN 5.** Tədqiqat nəticələrini məntiqi strukturda təqdim etməyi, elmi məqalə və hesabatlar şəklində yazmağı, həmçinin nəticələri şifahi və yazılı formada auditoriyaya təqdim etməyi bacaracaq. |
| **FTN 6.** Tədqiqatın etik və metodoloji prinsiplərinə riayət etməklə müstəqil və ya qrup halında tədqiqat aparacaq, layihə və dissertasiya işlərinin hazırlanmasında metodoloji əsasları düzgün tətbiq edə biləcək. |
| ***Akademik yazı və etika*** |
| **FTN 1.** Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| **FTN 2.** Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacarmaq. |

| |
|---|
| **FTN 3**. Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacarmaq. |
| **FTN 4**. Elmi diskussiyalar, seminarlar, simpoziumvə konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacarmaq. |
| **FTN 5.** Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| **FTN 6.** Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |
| ***Tədqiqat analitikası*** |
| **FTN 1.** Məlumatların növlərini və tədqiqatın məqsədinə uyğun olaraq məlumatların toplanma üsullarını təyin etməklə elmi-tədqiqat üçün effektiv məlumat toplama strategiyası hazırlayacaq. |
| **FTN 2.** Tədqiqat məqsədlərinə uyğun olaraq məlumatların ilkin emalı (təmizlənməsi, kodlaşdırılması, strukturlaşdırılması) və təhlilə hazır vəziyyətə gətirilməsi proseslərini yerinə yetirəcək. |
| **FTN 3**. Fərqli proqram təminatlarında (“Excel”, “EViews”, “SPSS”, “Python”, “R”, “Matlab” və s.) məlumatları analiz edərək sadə və mürəkkəb statistik göstəricilər əsasında nəticələr çıxaracaq. |
| **FTN 4**. Tədqiqatlarda istifadə olunan əsas təhlil metodlarını (kəmiyyət, keyfiyyət, qarışıq və eksperimental təhlil üsulları) sahəyə uyğun şəkildə tətbiq edərək analitik nəticələr əldə edəcək. |
| **FTN 5.** Analitik nəticələri vizual təqdimetmə alətləri (qrafiklər, diaqramlar, cədvəllər və s.) vasitəsilə elmi əsaslarla təqdim edəcək və nəticələri düzgün interpretasiya edəcək. |
| **FTN 6.** Tədqiqat nəticələrinə əsaslanaraq məntiqi və sübutlara əsaslanan elmi rəy, tövsiyə və ümumiləşdirmələr hazırlayaraq tədqiqat hesabları və elmi sənədlər tərtib edə biləcək. |

| **3. Azərbaycanın qədim və orta əsrlər tarixi ixtisaslaşması**<br>**Fənn üzrə təlim nəticələri (FTN)** |
|---|
| ***Tarix elminin müasir problemləri*** |
| **FTN 1.** Fənn çərçivəsində tələbə tarix elminin müasir mərhələdə qarşılaşdığı əsas nəzəri və metodoloji çətinlikləri anlamaq, onları elmi baxımdan şərh etmək və müxtəlif yanaşmaları müqayisə etmək bacarığını inkişaf etdirir. Tələbə həm milli, həm də dünya tarixşünaslığında mövcud istiqamətləri təhlil edə bilir. |

| |
|---|
| **FTN 2.** Fənn çərçivəsində tələbə mənbələrin tədqiqində obyektiv və subyektiv yanaşmalar arasındakı fərqləri müəyyənləşdirir, faktların təhrif edilmə ehtimalını qiymətləndirir və mənbələrin elmi dəyərini düzgün təhlil etmə bacarığı qazanır. |
| **FTN 3**. Tələbə müasir dövrdə qloballaşma proseslərinin, rəqəmsal arxivlərin, informasiya cəmiyyətinin formalaşmasının və texnologiyaların tarix elminin inkişafına təsirini dərk edir və onların praktiki əhəmiyyətini izah edə bilir. |
| **FTN 4**. Fənn çərçivəsində tələbə tarix elminin digər sosial və humanitar elmlərlə – fəlsəfə, sosiologiya, politologiya, mədəniyyətşünaslıq və digərləri ilə əlaqəsini təhlil edir və interdisiplinar yanaşmaların tarix araşdırmalarına verdiyi töhfələri izah edə bilir. |
| **FTN 5.** Tələbə öyrəndiyi nəzəri biliklər əsasında tarixi faktları və hadisələri analitik şəkildə təhlil edir, müxtəlif mövqeləri müqayisə edir, tənqidi düşünmə vərdişləri sayəsində müstəqil elmi nəticələr çıxarmaq bacarığını inkişaf etdirir. |
| **FTN 6**. Fənnin nəticəsi olaraq tələbə tarix elminin milli kimliyin, kollektiv yaddaşın və ümumbəşəri dəyərlərin formalaşmasında rolunu anlayır, tarixi irsin qorunması və gələcək nəsillərə ötürülməsində öz məsuliyyətini dərk edir. |
| ***Tarix elminin tarixi və metodologiyası*** |
| **FTN 1.** Tələbə tarix elminin yaranma və inkişaf mərhələlərini izah edə bilir. Tələbə tarix elminin qədim dövrlərdən müasir dövrə qədərki inkişaf mərhələlərini, fərqli tarixşünaslıq məktəblərini və nəzəri yanaşmaları öyrənir, onların tarixi təhlildə rolunu qiymətləndirir. |
| **FTN 2.** Tələbə tarixi tədqiqatın metodlarını mənimsəyir. Tələbə müqayisəli, tənqidi, interdisiplinar və sistemli metodlardan istifadə etmə bacarığı qazanır, tarixşünaslıqda elmi əsaslarla analiz aparmağı öyrənir. |
| **FTN 3**. Tələbə tarixi mənbələrdən istifadə etmə bacarığına yiyələnir. Tələbə yazılı, arxeoloji və vizual mənbələri təhlil edir, onların etibarlılığını qiymətləndirir və məlumatları obyektiv şəkildə şərh etməyi öyrənir. |
| **FTN 4**. Tələbə tarixi hadisələrin səbəb-nəticə əlaqələrini müəyyənləşdirir. Tələbə tarixi prosesləri sistemli şəkildə araşdırır, hadisələr arasında əlaqələri müəyyənləşdirir və onları tarixi kontekstdə izah edir. |
| **FTN 5.** Tələbə tarix elminin nəzəri problemlərini və müasir inkişaf istiqamətlərini dərk edir. Tələbə tarixşünaslıqda mövcud nəzəri mübahisələri, metodoloji yanaşmaları və müasir tədqiqatların əsas istiqamətlərini analiz edir. |
| **FTN 6**. Tələbə tarixi məlumatları elmi əsaslarla təqdim etmə və tənqidi analiz bacarığı qazanır. Tələbə tarixi bilikləri məntiqi, ardıcıl və elmi əsaslarla təqdim edir, tarixşünaslıq prinsiplərinə uyğun şəkildə təhlil aparır və nəticələr çıxarır. |
| ***Azərbaycanda milli azadlıq hərəkatı*** |
| **FTN 1.** Tələbə Azərbaycanın XX əsrin əvvəllərində milli azadlıq hərəkatının tarixi kontekstini izah edə bilir. Tələbə 1905–1918-ci illər dövründə baş verən siyasi, sosial |

| |
|---|
| və iqtisadi hadisələri öyrənir, milli azadlıq ideyalarının formalaşmasını və hərəkatın səbəblərini təhlil edə bilir. |
| **FTN 2.** Tələbə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti barədə geniş biliklərə malik olur. Tələbə dövlətçilik ənənələrinin formalaşması, Xalq Cümhuriyyətinin idarəetmə strukturu, hüquqi əsasları və xarici siyasət fəaliyyəti barədə məlumatları müqayisəli şəkildə təhlil edir. |
| **FTN 3**. Tələbə milli azadlıq hərəkatının aparıcı şəxslərinin fəaliyyətini və ideyalarını qiymətləndirir. Tələbə hərəkatın liderlərinin strateji və diplomatik fəaliyyətini öyrənir, onların milli-mənəvi dəyərlərə təsirini qiymətləndirir və tarixdəki rolunu şərh edir. |
| **FTN 4**. Tələbə hərəkatın daxili və xarici amillərə təsirini analiz edə bilir. Tələbə milli azadlıq hərəkatının regiondakı siyasi və sosial şərait, xarici dövlətlərin siyasəti və beynəlxalq proseslər üzərindəki təsirini müqayisəli şəkildə təhlil edir. |
| **FTN 5.** Tələbə tarixi mənbələrdən istifadə edərək hadisələri elmi əsaslarla şərh edir. Tələbə yazılı, arxiv və vizual mənbələri təhlil edir, məlumatların obyektivliyini qiymətləndirir və milli azadlıq hərəkatını elmi baxışla təqdim edir. |
| **FTN 6**. Tələbə milli azadlıq hərəkatının Azərbaycanın dövlətçilik və milli kimlik tarixindəki rolunu dərk edir. Tələbə hərəkatın müasir Azərbaycan üçün əhəmiyyətini, dövlətçilik ənənələrinin və milli kimliyin formalaşmasında verdiyi töhfəni izah edə bilir. |
| ***Azərbaycan XIX əsrin ilk 30 illiyində*** |
| **FTN 1.** Tələbə XIX əsrin ilk 30 illiyində Azərbaycanın siyasi xəritəsini, xanlıqlar sistemini və beynəlxalq münasibətlərdə ölkənin mövqeyini izah edə bilir. Tələbə bu dövrdə Cənubi Qafqazın geosiyasi əhəmiyyətini anlamaqla yanaşı, Azərbaycanın regiondakı mövqeyini müqayisəli şəkildə qiymətləndirməyi bacarır. |
| **FTN 2.** Tələbə müharibələrin səbəblərini siyasi, hərbi və iqtisadi amillər kontekstində dəyərləndirir. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin şərtlərini müqayisəli təhlil edir, bu sənədlərin beynəlxalq hüquq və regiondaxili münasibətlər baxımından nəticələrini elmi arqumentlərlə əsaslandırır. |
| **FTN 3**. Tələbə Şimali və Cənubi Azərbaycanın ayrılmasının dövlətçilik ənənələrinə, sosial struktura, milli kimliyin formalaşmasına və siyasi şüura təsirini dəyərləndirir. Bu prosesi müasir nəzəri modellər – milli kimlik, imperiya siyasəti və kolonializm konsepsiyaları əsasında izah edə bilir. |
| **FTN 4**. Tələbə torpaq mülkiyyəti formalarını, kəndli təbəqəsinin vəziyyətini və iqtisadi münasibətlərin transformasiyasını geniş təhlil edir. Azərbaycanın regional və beynəlxalq ticarət əlaqələrini iqtisadi nəzəriyyələr kontekstində izah edir, iqtisadi dəyişikliklərin sosial-siyasi nəticələrini qiymətləndirir. |
| **FTN 5.** Tələbə maarifçilik ideyalarının yaranması və yayılmasını, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir və digər ziyalıların fəaliyyətini mədəni-modernləşmə kontekstində dəyərləndirir. Ədəbiyyat və mədəniyyətin milli şüurun formalaşmasındakı rolunu ideoloji və fəlsəfi yanaşmalar əsasında izah edir. |

| |
|---|
| **FTN 6**. Tələbə rus, fars, osmanlı və yerli mənbələr üzərində tənqidi təhlil aparır, müqavilə və arxiv materiallarını kontekstual yanaşmalarla şərh edir. Regional hadisələri qlobal siyasi proseslər fonunda analiz edir, nəzəri yanaşmalardan istifadə etməklə müstəqil elmi nəticələr və konseptual ümumiləşdirmələr irəli sürür. |
| ***Türk-müsəlman əhalisinə qarşı soyqırım*** |
| **FTN 1.** Tələbə türk-müsəlman əhalisinə qarşı törədilmiş soyqırımın tarixi kontekstini izah edə bilir. Tələbə XX əsrin əvvəllərində Azərbaycan və Qafqaz bölgəsində baş vermiş qırğınların siyasi, sosial və iqtisadi səbəblərini öyrənir. |
| **FTN 2.** Tələbə soyqırımın mərhələlərini və hadisələrin gedişatını təhlil edir. Tələbə 1905–1906-cı illər və 1918-ci il hadisələrini, həmçinin münaqişələrin regiondakı təsirlərini müqayisəli şəkildə araşdırır. |
| **FTN 3**. Tələbə soyqırımın sosial və humanitar nəticələrini qiymətləndirir. Tələbə əhalinin məskunlaşmasına, sosial struktura və mədəni irsin itirilməsinə təsirlərini öyrənir və analiz edir. |
| **FTN 4**. Tələbə hadisələrin beynəlxalq və regional əhəmiyyətini şərh edir. Tələbə soyqırımın xarici dövlətlər və beynəlxalq ictimaiyyət tərəfindən qəbulunu, regiondakı siyasi və diplomatik nəticələrini dəyərləndirir. |
| **FTN 5.** Tələbə tarixi mənbələr və sənədlərlə işləmə bacarığına yiyələnir. Tələbə arxiv sənədlərini, yazılı və vizual mənbələri təhlil edir, məlumatların obyektivliyini qiymətləndirir və hadisələri elmi əsaslarla şərh edir. |
| **FTN 6**. Tələbə türk-müsəlman əhalisinin soyqırımının milli kimlik və tarixi yaddaşdakı rolunu dərk edir. Tələbə soyqırımın Azərbaycan xalqının milli kimliyinin formalaşmasına, dövlətçilik ənənələrinə və müasir tarix anlayışına təsirini izah edə bilir. |
| ***Azərbaycanda XIX-XX əsrin əvvəllərində təhsil*** |
| **FTN 1.** Tələbə Azərbaycanın XIX–XX əsrin əvvəllərində təhsil sisteminin tarixini izah edə bilir. Tələbə milli və dini təhsil müəssisələrinin yaranma səbəblərini, fəaliyyət prinsiplərini və tarixi inkişaf mərhələlərini öyrənir. |
| **FTN 2.** Tələbə maarifçilik hərəkatının rolunu təhlil edir. Tələbə Azərbaycan ziyalılarının və maarifçilərin fəaliyyətini, onların təhsil sahəsindəki təşəbbüslərini və cəmiyyətin maariflənməsindəki əhəmiyyətini qiymətləndirir. |
| **FTN 3**. Tələbə təhsil müəssisələrinin proqram və metodlarını müqayisəli şəkildə öyrənir. Tələbə məktəb proqramlarını, dərslikləri və tədris metodlarını təhlil edir, onların sosial və mədəni təsirlərini şərh edir. |
| **FTN 4**. Tələbə təhsilin sosial-iqtisadi və mədəni həyatdakı rolunu dərk edir. Tələbə təhsilin milli kimlik, mədəni inkişaf və ictimai transformasiyadakı əhəmiyyətini izah edə bilir. |
| **FTN 5.** Tələbə tarixi mənbələr və arxiv materialları ilə işləmək bacarığına yiyələnir. Tələbə yazılı, arxiv və vizual mənbələrdən istifadə edərək təhsil tarixi ilə bağlı hadisələri elmi əsaslarla təhlil edir. |

| |
|---|
| **FTN 6.** Tələbə Azərbaycanın XIX–XX əsrin əvvəllərində təhsil irsinin müasir cəmiyyət üçün əhəmiyyətini şərh edir. Tələbə həmin dövrdə formalaşmış təhsil ənənələrinin müasir milli təhsil və dövlətçilik ənənələrinə verdiyi töhfəni izah edə bilir. |
| ***Azərbaycanda Sovet işğal rejiminə qarşı mübarizə*** |
| **FTN 1.** Tələbə Azərbaycanın 1920-ci ildən etibarən Sovet işğalına qarşı apardığı mübarizənin tarixi kontekstini izah edə bilir. Tələbə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra yaranan siyasi vəziyyəti və xalqın müstəqillik ideyalarını qorumaq üçün apardığı hərbi, siyasi və diplomatik mübarizəni öyrənir. |
| **FTN 2.** Tələbə işğal rejiminin tətbiq etdiyi repressiya və siyasətləri təhlil edir. Tələbə Sovet hakimiyyətinin tətbiq etdiyi məcburi tədbirlər, siyasi təqiblər və sosial dəyişikliklərin əhalinin həyatına təsirini qiymətləndirir. |
| **FTN 3**. Tələbə milli-azadlıq hərəkatının lider və iştirakçılarının fəaliyyətini qiymətləndirir. Tələbə mübarizənin aparıcı şəxslərinin strategiyalarını, siyasi və diplomatik fəaliyyətini öyrənir və onların tarixi rolunu şərh edir. |
| **FTN 4**. Tələbə Sovet işğalına qarşı mübarizənin sosial və siyasi nəticələrini dərk edir. Tələbə mübarizənin Azərbaycan cəmiyyətinə, dövlətçilik ənənələrinə və milli kimliyin formalaşmasına təsirini analiz edir. |
| **FTN 5.** Tələbə tarixi mənbələr və arxiv sənədləri ilə işləmək bacarığına yiyələnir. Tələbə yazılı, arxiv və vizual mənbələrdən istifadə edərək hadisələri elmi əsaslarla təhlil edir və obyektiv nəticələr çıxarır. |
| **FTN 6**. Tələbə Sovet işğalına qarşı mübarizənin Azərbaycan tarixindəki rolunu şərh edir. Tələbə həmin dövrün milli kimlik, dövlətçilik ənənələri və müasir tarix anlayışında əhəmiyyətini izah edə bilir. |
| ***Qarabağ müharibələri. Zəfər tarixi*** |
| **FTN 1.** Tələbə Qarabağ müharibələrinin tarixi və siyasi səbəblərini izah edə bilir. Tələbə 1988–1994-cü illərdə baş verən münaqişələrin tarixi kontekstini, regiondakı siyasi və sosial vəziyyəti təhlil edir. |
| **FTN 2.** Tələbə müharibələrin gedişatını və strateji mərhələlərini şərh edir. Tələbə hərbi əməliyyatları, diplomatik səyləri və beynəlxalq reaksiyaları müqayisəli şəkildə araşdırır. |
| **FTN 3**. Tələbə 2020-ci il Zəfərinin nəticələrini qiymətləndirir. Tələbə torpaqların işğaldan azad edilməsinin strateji, siyasi və hüquqi əhəmiyyətini, həmçinin regional balans və beynəlxalq münasibətlərə təsirini izah edir. |
| **FTN 4**. Tələbə müharibələrin sosial və humanitar təsirlərini analiz edir. Tələbə münaqişələrin əhali, mədəniyyət və iqtisadiyyat üzərində yaratdığı təsirləri öyrənir və qiymətləndirir. |
| **FTN 5.** Tələbə tarixi mənbələr və sənədlərlə işləmə bacarığına yiyələnir. Tələbə arxiv, yazılı və vizual mənbələrdən istifadə edərək müharibə və Zəfər tarixini elmi əsaslarla təhlil edir. |

| |
|---|
| **FTN 6**. Tələbə Qarabağ müharibələrinin milli kimlik və dövlətçilik tarixindəki rolunu dərk edir. Tələbə müharibələrin Azərbaycan xalqının milli həmrəyliyinə, dövlətçilik ənənələrinin möhkəmlənməsinə və vətənpərvərlik hisslərinin inkişafına verdiyi töhfəni şərh edə bilir. |
| ***Müasir dövrdə Azərbaycanın Qafqazın lider dövlətinə çevrilməsi*** |
| **FTN 1.** Tələbə Azərbaycanın müasir dövrdə geosiyasi mövqeyini elmi yanaşmalar əsasında izah edir. Qafqaz regionunun beynəlxalq münasibətlər sistemində rolunu qiymətləndirir, Azərbaycanın bu müstəvidə lider mövqeyini təmin edən geostrateji amilləri təhlil edir. Geosiyasət nəzəriyyələri və regional təhlükəsizlik konsepsiyalarından istifadə etməklə Azərbaycanın mövqeyini şərh edir. |
| **FTN 2.** Tələbə Azərbaycanın xarici siyasət strategiyasını nəzəri və praktiki aspektdə təhlil edir. Balanslaşdırılmış xarici siyasət modelini, qonşu dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərin xüsusiyyətlərini araşdırır. Xarici siyasətin Qafqazda liderlik statusunun formalaşmasına təsirini analitik metodlarla əsaslandırır. |
| **FTN 3**. Tələbə Enerji siyasətinin və beynəlxalq layihələrin Azərbaycanın lider mövqeyindəki rolunu izah edir. Bakı–Tbilisi–Ceyhan, TANAP və digər layihələrin regional iqtisadi və siyasi nəticələrini qiymətləndirir. Enerji təhlükəsizliyi nəzəriyyələri əsasında Azərbaycanın Avropa və Asiya bazarlarında strateji tərəfdaş kimi rolunu dəyərləndirir. |
| **FTN 4**. Tələbə Azərbaycanın iqtisadi modernləşmə və sosial-siyasi sabitlik modelini elmi baxımdan təhlil edir. İqtisadi şaxələndirmə, innovasiya siyasəti və infrastruktur inkişafı sahəsində həyata keçirilən islahatları izah edir. Sabitliyin daxili siyasət və regional liderlik üçün yaratdığı şəraiti tədqiqat yönümlü yanaşma ilə əsaslandırır. |
| **FTN 5.** Tələbə Regional təhlükəsizlik və hərbi-siyasi güc kontekstində Azərbaycanın rolunu qiymətləndirir. Qarabağ müharibələri, sülh təşəbbüsləri və regional təhlükəsizlik mexanizmlərində Azərbaycanın mövqeyini öyrənir. Güc balansı və beynəlxalq təhlükəsizlik nəzəriyyələri əsasında Azərbaycanın hərbi-siyasi rolunu təhlil edir. |
| **FTN 6**. Tələbə Müasir dövrdə Azərbaycanın liderliyinin mədəni və ideoloji aspektlərini araşdırır. Multikulturalizm siyasəti, milli-mədəni irsin qorunması və beynəlxalq humanitar təşəbbüslərin Azərbaycanın nüfuzuna təsirini izah edir. Soft power (yumşaq güc) nəzəriyyəsi əsasında Azərbaycanın beynəlxalq aləmdə mədəni-siyasi nüfuzunu qiymətləndirir və müstəqil elmi nəticələr çıxarır. |

## 7. Təcrübə

7.1. Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir. İxtisasın xüsusiyyətlərindən asılı olaraq təcrübənin təşkili qayadaları ali təhsil müəssisəsi tərəfindən müəyyən oluna bilər.
7.2. Təcrübə özəl şirkətdə, dövlət müəssisəsində, tədqiqat laboratoriyasında (eləcə də universitet, AMEA, yerli, yaxud beynəlxalq özəl təşkilat və şirkətlərdə və s.) təşkil

oluna bilər.
7.3. Təcrübə prosesindən maksimal fayda əldə etmək məqsədilə tələbələr ilkin hazırlıq prosesinə cəlb edilməli (karyera palanlanması) və onların müvafiq bacarıqları (yumşaq və sərt bacarıqlar) fromalaşdırılmalıdır.
7.4. Təcrübənin təşkili ali təhsil müəssisəsinin vəzifəsidir. Təcrübədən öncə ali təhsil müəssisəsi və təcrübə təşkil olunacaq qurum arasında müqavilə imzalanmalıdır. Müqavilədə təcrübənin keçirilmə şərtləri, tələbələrin hüquq və vəzifələri və digər zəruri təfərrüatlar əks olunur. Təcrübəni təşkili iki formada təklif olunacaqdır. İmzalanmış müqaviləyə uyğun olaraq, tələbələr müvafiq şirkət və qurumlarda təcrübə imkanlarını araşdıracaq və müsbət dəyərləndirilən tələbələr qarşı tərəfin razılıq sənədlərini universitetə təqdim edəcəkdir. Eyni zamanda, tələbənin fərdi müraciəti əsasında onun ixtisasına uyğun digər qurumlarda, o cümlədən xaricdə təcrübə keçməsinə icazə verilir.
7.5. Təcrübənin təşkilinin ikinci forması isə, tələbələrin iş dünyasından daxil olan sifariş layihələrinin icra olunmasıdır. Belə ki, müxtəlif Özəl və dövlət qurumlarında ehtiyac duyulan araşdırmalar, təkmilləşmə imkanları, problemlərə həll yolları tələbə və mentor müəllimlərin birgə fəaliyyəti ilə təhlil və tədqiq ediləcək və layihə şəklində sifarişçilərə təqdim ediləcəkdir.
7.6. Təcrübənin qiymətləndirilməsi təqdim olunmuş layihənin dəyərləndirilməsindən sonra iş dünyası nümayəndələri tərəfindən həyata keçiriləcəkir.
7.7. Təcrübənin qiymətləndirilməsi: tələbə təcrübə müddətində istehsalat müəssisəsi və ya şirkətdə aparılan təcrübə layihəsinin nəticələrinə dair hesabatın yazmalı və ali məktəbin akademik heyəti və təcrübə yerinin nümayəndələrindən ibarət komissiya qarşısında müdafiə etməlidir. Təcrübə proqramının yerinə yetirilməsi üzrə nəticələr təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilmiş formada qiymətləndirilir.

**Əlavə 2**

## Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək ixtisaslaşmanın təhsil proqramının təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyənləşdirməlidir.

| **Tədris fəaliyyətinin (fənnin) adı** | **Proqramın təlim nəticələri** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **PTN 1** | **PTN 2** | **PTN 3** | **PTN 4** | **PTN 5** | **PTN 6** |
| **Ümumi fənlər** | | | | | | |
| Tədqiqat metodları | x | | | | | |
| Akademik yazı və etika | | | x | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Tədqiqat analitikası | | x | | | | |
| Elmi-pedaqoji təcrübə | | | | | x | |
| Elmi tədqiqat təcrübəsi | | | | | | x |
| Magistrlik dissertasiyası | | | | | | x |
| **İxtisas (ixtisaslaşma) fənləri** | | | | | | |
| Tarix elminin müasir problemləri | | x | x | | | |
| Tarix elminin tarixi və metodologiyası | | | x | | x | |
| Azərbaycanda milli azadlıq hərəkatı | x | | | | | |
| Azərbaycan XIX əsrin ilk 30 illiyində | | x | | | | x |
| Türk-müsəlman əhalisinə qarşı soyqırım | x | x | | | | |
| Azərbaycanda XIX-XX əsrin əvvəllərində təhsil | x | | | | | x |
| Azərbaycanda Sovet işğal rejiminə qarşı mübarizə | x | | | | | |
| Qarabağ müharibələri. Zəfər tarixi | x | x | | | | x |
| Müasir dövrdə Azərbaycanın Qafqazın lider dövlətinə çevrilməsi | | | x | x | | x |

**Razılaşdırıldı:**

**Tədris şöbəsinin müdiri**

**_____________f-r.ü.f.d. L.A.Ağamalıyeva**

**Beynalxalq Magistratura və Doktrantura mərkəzinin direktoru**

**_________________t.ü.f.d.,dos N.Y. Quliyeva**

**Siyasi və ictimai elmlər kafedrasının müdiri**

**_____________s.e.ü.f.d., dos. E.B.Talışınski**